## AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ PREZİDENTİ AKADEMİK M.K. KƏRİMOVA

Sizi və rəhbərlik etdiyimiz elmi müəssisələrin əmək kollektivlərini Azərbaycan Milli Elmlər Akademiyasının 60 illik şanlı yubileyi münasibətilə təbrik edirik.

Möhtəşəm elm məbədi olan Milli Elmlər Akademiyası Respublikamızda elmi içtimaiətin formalaşmasında, Respublika xalq təsərrüfatının inkişafında, yüksək ixtisaslı elmi kadrların hazırlanmasında, Respublika elmiinin dünya elminə inteqrasiyasında, müstəqil Respublikamızın elmi nailiyyətlərinin dünya elmi içtimaiətində layiqincə təmsil olunmasında, Azərbaycan Respublikasının demokratik və hüquqi dövlət kimi formalaşmasında həlledici rol oynayır.

Müstəqil Respublikamızın uğurlarının təminatında töhvələri olan Milli Elmlər Akademiyasına gələcək fəaliyyətində yeni-yeni uğurlar arzulayırıq.

Redaksiya heyəti

---

## «AZƏRENERJİ» ASC-NİN PREZİDENTİ CƏNAB ETİBAR PİRVERDİYEVƏ

Sizi və rəhbərlik etdiyiniz əmək kollektivini Respublikamızda həyativacib energetika sahəsinin baş təşkilatı olan «Azərenerji» ASC-nin 70 illik şanlı yubileyi münasibətilə təbrik edirik.

Xalqımıza, Respublika zəhmətkeşlərinə göstərdiyimiz əvəzsiz xidmətlər, vətənimizin müstəqilliyinin qorunub saxlanılmasında həlledici əhəmiyyətiniz, ümumilli lider Heydər Əliyevin xalqımıza bəxş etdiyi uğurların möhkəmləndirilməsində Sizin töhvələriniz bütün səviyyələrdə yüksək qiymətləndirilmişdir.

Sizə və rəhbərlik etdiyiniz əmək kollektivinə məsul və şərəfli fəaliyyətimizdə yeni-yeni uğurlar, müstəqil Respublikamızın qüdrətlənməsi naminə parlaq zəfərlər arzulayırıq.

Redaksiya heyəti